*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*
***ISSN: 2148-2292***
***11(1) 2024***

***Mass Communication Special Issue***
***Araştırma Makalesi | Research Article***
***Geliş tarihi |Received:05.11.2024***
***Kabul tarihi |Accepted:09.12.2024***
***Yayın tarihi |Published:15.12.2024***

**Aytəkin Zeynalova**

***https://orcid.org/0000-0002-9737-1072***
*Associate Professor, Doctor of Philosophy in Political Science, Baku State University, Department of International Journalism and Information Policy, Azerbaijan, phd.aytekinzeynalova@gmail.com*

***Atıf Künyesi | Citation Info***

Zeynalova, A. (2024). Azərbaycan Şanxay Əməkdaşlıq Təşkilatı Üçün Etibarlı Tərəfdaşdır. *Akademik Tarih ve Düşünce Dergisi Mass Communication Special Issue*, *11* (1), 798-810, ***https://doi.org/10.46868/atdd.2024.844***

# Azərbaycan Şanxay Əməkdaşlıq Təşkilatı Üçün Etibarlı Tərəfdaşdır

***Xülasə***

*Qazaxıstanın paytaxtı Astana şəhərində keçirilən Şanxay Əməkdaşlıq Təşkilatının Zirvə görüşü ona üzv olan ölkələrin iqtisadiyyatının inkişafı, təhlükəsizliyin təmin edilməsi, qarşılıqlı əlaqələrin möhkəmləndirilməsi, vacib problemlərin həlli, birgə fəaliyyətin tənzimlənməsi baxımından böyük əhəmiyyətə malikdir. Şanxay Əməkdaşlıq Təşkilatı da öz fəaliyyətində demokratik prinsiplərə, dövlətlər arasında qarşılıqlı etimada və qonşuluq münasibətlərinə, siyasət, ticarət, iqtisadiyyat, elm və texnologiya, mədəniyyət, təhsil, enerji, nəqliyyat, turizm, sülh, təhlükəsizlik və sabitliyin əldə olunması üçün səylərin birləşdirilməsinə əsaslanan bir orqan kimi üzv dövlətlərin əlaqələndirilməsində, vacib problemlərin müzakirə edilib aradan qaldırılmasında mühüm rol oynayır. Azərbaycan bu təşkilatda dialoq tərəfdaşı statusuna sahib olmasına baxmayaraq, onun fəaliyyətində yaxından iştirak edir. Bu qurumla ölkəmiz arasında əməkdaşlıq sahələrini əks etdirən memorandum imzalanıb: "Terrorizm, ekstremizm və separatçılıq ilə mübarizəyə, regional təhlükəsizlik və sabitliyin qorunmasına böyük önəm verən dövlətimiz hər sahədə təşkilatla əlaqələrini ildən-ilə möhkəmləndirmək əzmindədir". 16 ölkənin dövlət və hökumət başçılarının qatıldığı Zirvə görüşünün "Çoxtərəfli dialoqun möhkəmləndirilməsi - davamlı sülhə və inkişafa nail olmaq" mövzusuna həsr edilməsi bu günümüz üçün vacib və böyük əhəmiyyətə malik məsələdir. Məqalədə Cənab İlham Əliyevin Zirvə görüşü çərçivəsində Rusiya Prezidenti Vladimir Putin, Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev, Çin Xalq Respublikasının sədri Si Cinpin ilə görüşləri, əlbəttə ki, ölkəmizin gələcək inkişafı və təhlükəsizliyi mövzusu, Prezidentin çıxışları, Azərbaycanın yeni dövr hədəfləri və xarici siyasətinin prioritetləri təhlil olunur. Həmçinin, Azərbaycanın Şanxay Əməkdaşlıq Təşkilatında iştirakının hər tərəfli analizi və bu təşkilatın miqyası və*

*qlobal əhəmiyyəti işıqalndırılır. Məqalədə Prezidentin internet saytından, siyasi ekspertlərin telekanallara və xəbər saytlarına verdiyi müsahibələrdən, Azərbaycanın internet resurslarından istifadə olunub.*

***Açar sözlər:*** *ŞƏT, ŞƏT plyus, iki tərəfli əlaqələr, Zirvə görüşü, Azərbaycan-Qazaxıstan*

## Azerbaijan is a reliable partner for the Shanghai Cooperation Organisation

***Abstract***

*The Shanghai Cooperation Organisation Summit held in Astana, the capital of Kazakhstan, is of great importance in terms of developing the economies of the member countries, ensuring security, strengthening mutual relations, solving important problems and organising joint activities. At the same time, the Shanghai Cooperation Organisation is a political, trade, economic, science and technology, cultural, educational, energy, transport, tourism, peace, security and stability organisation based on democratic principles, mutual trust between states and good neighbourly relations. It plays an important role in the coordination of member states and in discussing and solving important problems. Although Azerbaijan has the status of a dialogue partner of this organization, it closely participates in its activities. A memorandum reflecting the areas of cooperation between this organisation and our country was signed: 'Attaching great importance to the fight against terrorism, extremism and separatism and the preservation of regional security and stability, our state is determined to strengthen its relations.' 'With year by year organisation in all areas.' The Summit, attended by heads of state and government of 16 countries, was dedicated to the theme 'Strengthening Multilateral Dialogue - Achieving Sustainable Peace and Development', which is an important and highly relevant topic for today. The article analyses the meetings of President Ilham Aliyev with Russian President Vladimir Putin, Kazakh President Kassym Javert Tokayev and Chinese President Xi Jinping on the sidelines of the Summit, as well as, of course, the future development and security of our country. The President's speeches, Azerbaijan's new-term goals and foreign policy priorities are discussed. It also provides a comprehensive analysis of Azerbaijan's accession to the Shanghai Cooperation Organisation and highlights the scale and global significance of this organisation. The article is based on the President's website, interviews with political experts on TV channels and news websites, and Azerbaijani Internet sources.*

***Keywords:*** *SCO, SCO Plus, bilateral relations, Summit, Azerbaijan-Kazakhstan*

## Giriş

Azərbaycanın ŞƏT-lə əməkdaşlığının tarixi 10 ilə yaxındır. Belə ki, 2015-ci ildə ŞƏT-ə üzv dövlətlərin başçıları Şurasının iclasında Azərbaycana tərəfdaş statusun verilməsi ilə bağlı qərar qəbul edilib, 2016-cı ildə Pekində Azərbaycana ŞƏT-in dialoq üzrə tərəfdaşı statusunun verilməsi haqqında Memorandum imzalanıb. 2022-ci ildə isə ŞƏT-in Özbəkistanın Səmərqənd şəhərində keçirilmiş Zirvə Görüşündə Prezident İlham Əliyev fəxri qonaq qismində iştirak edib. Artıq ikinci dəfədir ki, İlham Əliyev ŞƏT-ə üzv ölkələrin Zirvə toplantısına dəvət olunur (*"4 Sualda Şanxay Əməkdaşlıq Təşkilatı"*, 2022). Təbii ki, bu da səbəbsiz deyil. Çünki Azərbaycan yerləşdiyi coğrafi mövqe baxımından ŞƏT üçün mühüm əhəmiyyətə malikdir. Xüsusilə də, nəqliyyat və kommunikasiya xətlərinin qovşağında yerləşməsi, eləcə də enerji resursları ilə zəngiliyi səbəbindən Azərbaycan ŞƏT üçün ideal tərəfdaş hesab olunur. Azərbaycanın regional güc kimi böyük təsir imkanlarına və nüfuza malik olması, COP29 kimi dünya səviyyəli tədbirə ev sahibliyi etməsi ŞƏT-in ölkəmizlə əməkdaşlığa marağını daha da artırır. ŞƏT ilə əməkdaşlıq Azərbaycanın mövqeyinin dünyaya çatıdırlması baxımından da əhəmiyyətlidir. Nəzərə alaq ki, BMT Təhlükəsizlik Şurasının 5 daimi üzvündən ikisi – Rusiya və Çin təşkilata üzvdürlər. Bundan əlavə, təşkilatda Türkiyə, Pakistan, Hindistan və İran kimi güclü dövlətlərin də müxtəlif statuslarla təmsil olunduqlarını unutmamalıyıq.

Nəticə olaraq, Astana görüşünün həm Azərbaycan, həm də ŞƏT üçün mühüm əhəmiyyət kəsb etdiyi göz önündədir. Qazaxıstan zirvəsinin Azərbaycan-ŞƏT əməkdaşlığında yeni səhifə açacağını proqnozlaşdıra bilərik (*"Astana Zirvəsinin Strateji Əhəmiyyəti"*, 2024).

## 1. Prezident İlham Əliyev Şanxay Əməkdaşlıq Təşkilatının sammitində

Şanxay Əməkdaşlıq təşkilatı 2001-ci ildə Qazaxıstan, Çin, Qırğızıstan, Rusiya, Özbəkistan və Tacikistan tərəfindən Şanxayda təsis olunub. Hazırda qurumun 9 üzvü var ki, bunlar, Qazaxıstan, Çin, Rusiya, Qırğızıstan, Özbəkistan, Tacikistan, Pakistan, Hindistan və İrandır. Eləcədə, 3 müşahidəçi üzvü və 14 dialoq tərəfdaşı var ki, Azərbaycan və Türkiyə təşkilatla məhz dialoq tərəfdaşı statusunda münasibətlər qurur.

2022-ci il sentyabrın 16-da Səmərqənddə keçirilən Zirvə görüşündə Prezident İlham Əliyev də iştirak etdi. Azərbaycanın belə mötəbər Təşkilatın sammitinə 2-ci dəfə dəvət alması ölkəmizin o cümlədən, prezidentin dünya miqyaslnda nüfuzu və ona göstərilən yüksək ehtiramın növbəti ifadəsidir. Çoxtərəfli dialoqun möhkəmləndirilməsi davamlı sülhə və inkişafa nail olmaq mövzusuna həsr olunan Zirvə görüşündə Şanxay Əməkdaşlıq Təşkilatına üzv ölkələrin dövlət və hökumət başçıları, siyasi, iqtisadi, ticari, mədəni, humanitar və digər sahələrdə əməkdaşlığa dair geniş müzakirələr apardılar. Sammitin yekun siyasi sənədi olan

Astana bəyannaməsində qurumun bir çox aktual məsələlərlə bağlı mövqeyi ortaya qoyuldu. Təşkilatın fəaliyyəti yüksək qiymətləndirilir və imzalanmış 20 sənədlə gələcək üçün prioritet hədəflər müəyyənləşdirir. Qazaxıstan liderinin şəxsi dəvəti ilə Astanaya səfər edən Prezident İlham Əliyev "ŞƏT plyus" formatında çıxış etdi və bildirdi ki, Azərbaycanın Avrasiya məkanında əsas tranzit qovşağına çevrilməsi ŞƏT-na həm geosiyasi, həm də geoiqtisadi dibrentlər qazandıracaq əsas faktor olacaq.

Preziden İlham Əliyev çıxışında: "Azərbaycan ikinci dəfədir ki, ŞƏT-in Zirvə toplantısına dəvət olunur. Biz bunu Azərbaycan ilə üzv dövlətlər arasında inkişaf edən tərəfdaşlığın göstəricisi kimi qiymətləndiririk. Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri üzrə qarşılıqlı fəaliyyət Azərbaycan ilə ŞƏT-ə üzv dövlətlər arasında əməkdaşlığın vacib sahəsini təşkil edir. Coğrafi mövqeyi və nəqliyyat infrastrukturuna qoyulmuş böyük sərmayələr Azərbaycana Avrasiyanın nəqliyyat-logistika qovşaqlarından birinə çevrilmək imkanı verib" (Prezident.az., 2024). Şübhəsiz, bu prossesin effektiv gedişində rəsmi Bakının ŞƏT ilə ötən illər ərzində qurduğu əlaqələrin də xüsusi əhəmiyyəti var. Məsələn, 2015-ci ildə quruma üzv dövlətlərin iclasında Azərbaycana tərəfdaş statusunun verilməsi ilə bağlı qərarın qəbulu, eləcədə 2016-cı ildə Pekində ölkəmizə təşkilatın dialoq üzrə tərəfdaş statusunun verilməsi haqqında memerandumun imzalanması qarşılıqlı münasibətlərin dərinləşməsində mühüm mərhələlər kimi götürülür. Artıq rəsmi Bakı ilə ŞƏT arasında qlobal nəqliyyat marşrutları ilə bağlı intensiv dialoq həyata keçirilir. Orta dəhlizin işlək mexanizmə çevrilməsi üçün praktik addımlar atılır. Ümumilikdə Azərbaycanın Şimal- Cənub və Qərb- Şərq nəqliyyat dəhlizlərinin inkişafı ilə bağlı atdığı bu addımları beynəlxalq tərəfdaşlar məmnunluqla qarşılayır.

Bakı -Tiblisi -Qars dəmir yolunun illik ötürücülük qabiliyyəti 1 milyon tondan 5 milyon tona qədər artıb; Ələt Beynəlxalq Dəniz Ticarət Limanının illik ötürücülük qabiliyyətini ildə 15 milyon tondan 25 milyon tona qədər artırmaq nəzərdə tutulur. "Şimal- Cənub" dəhlizinin Azərbaycan seqmentinin dəmir yolu və avtomobil infrastrukturu hazırdır və uğurlu fəaliyyət göstərir. Hazırda dəmir yolu daşımalarınln həcminin 15 milyon tona qədər artırılması üzərində iş gedir. Zərurət yaranarsa, bu rəqəm 30 milyon tona çatdırılacaq. Onu da əlavə edək ki, ŞƏT Azərbaycanın haqlı mövqeyinin beynəlxalq ictimaiyyətə çatdırılması baxımından da vacib platformadır. Prezident İlham Əliyevin zirvə görüşlərində iştirakı və etdiyi çıxışlarda post - müharibə reallıqları, o cümlədən də, Cənubi Qafqazda sülhün təmini üzrə Azərbaycanın prioritetlərinin qlobal təqdimatının ən səmərəli üsullarından biri sayılır (Azərtac, 2024).

Prezident İlham Əliyev: "2023-cü ilin sentyabrında Azərbaycan beynəlxalq səviyyədə tanınmış əraziləri üzərində suverenliyini tam bərpa etdi. Bununla da beynəlxalq hüquq və tarixi

ədalət bərpa olundu. Azərbaycan Ermənistanın otuzillik işğalına son qoydu və BMT Təhlükəsizlik Şurasının otuz il kağız üzərində qalmış 4 qətnaməsinin icrasını hərbi-siyasi vasitələrlə təmin etdi" (Prezident.az., 2024). Azərbaycan multiliteralizmi dəstəkləyir. 2019-2023-cü illərdə Qoşulmama Hərəkatına uğurlu sədrlik hərəkatın qlobal arenada nüfuzu və gücünü artıran əsas şərtlərdəndir. Bakı qurumun instosional inkişafına da töhvə verdi. Üzv dövlətlərin dəstəyi ilə hərəkatın parlament şəbəkəsi, gənclər təşkilatı təsis edildi. Habelə qadın platformasının əsası qoyuldu. Şübhəsiz, Azərbaycanın bəzi qlobal platformalarda həyata keçirdiyi uğurlu fəaliyyət ŞƏT ilə də konstruktiv təmaslar üçün yol xəritəsi sayılır.

ŞƏT əsas məqsədləri isə bunlardan ibarətdir.

-Üzv Dövlətlər arasında qarşılıqlı etimad və qonşuluq münasibətlərinin gücləndirilməsi.

-Siyasət, ticarət və iqtisadiyyat, elm, texnologiya, mədəniyyət, təhsil, turizm və digər sahələrdə səmərəli əməkdaşlığın inkişafı.

-Regionda sülh, təhlükəsizlik və sabitlik əldə edilməsi üçün birgə səylərin göstərilməsi.

-Yeni siyasi və iqtisadi beynəlxalq düzənin yaradılması üçün addımların atılması.

Təbii ki, Azərbaycanın təşkilatın hər bir üzv ölkəsi ilə həm iki tərəfli, həm də regional çərçivədə qurduğu əlaqələr, humanitar təmaslar qarşıya qoyulan vəzifələrin icrasında əhəmiyyətli rol oynayır. Məsələn, Heydər Əliyev fondunun təşkilatçılığı ilə ŞƏT Pekindəki mənzil qərargahında 2018-ci ildə Azərbaycan Mədəniyyət günü, 2021-ci ildə isə Nizami Gəncəvinin 880 illik yubileyi qeyd edilib və qərargahda Nizami Gəncəvinin büstü qoyulub. Bakı ŞƏT-ə üzv olan hər bir ölkə ilə çoxvektorlu əlaqələr də yarada bilib. Bir sözlə əməkdaşlıq bütün istiqamətlərdə inkişaf edir. O cümlədən COP29 məsələsində. 200 dövlətin dəstəyi ilə qlobal iqlim sammitinə ev sahibliiyi etmək hüququ qazanan Azərbaycan noyabrda Bakıda keçirilən COP29 çərçivəsində inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında körpü yaratmaq üçün səylər göstərir. Bu missiyanın uğurla yerinə yetirilməsi isə Beynəlxalq humanitar hüquqa ən böyük töhvə olacaq.

## 2. Astana sammitinin ölkəmizə vəd etdiyi siyasi-iqtisadi üstünlüklər, ikitərəfli münasibətlər

Prezident İlham Əliyev: *"Azərbaycanın prioritetləri sırasında həm də iqlim dəyişikliyinin mənfi təsiri səbəbindən ekzistensial təhlükə ilə üzləşən inkişaf etməkdə olan kiçik ada dövlətlərinə dəstək yer alır. Azərbaycan inkişaf etməkdə olan kiçik ada dövlətləri üçün xüsusi texniki yardım fondunun yaradılması təşəbbüsü ilə çıxış edib. Biz dünyada ən böyük beynəlxalq tədbir olan COP29-un keçirilməsinə hazırlıq istiqamətində ŞƏT ilə işi davam etdirəcəyik"* (Prezident.az, 2024).

Digər vacib məqam-ŞƏT plyus formatında keçirilən bu dəfəki sammitə 16 ölkənin dövlət və hökümət başçısının qatılması sammitin qlobal reytinqindən xəbər verir. Elə bu baxımdan Prezident İlham Əliyevin Təşkilatın Astana sammitində iştirakı və çıxışının bir sıra strateji və tarixi cəhətləri xüsusi ilə diqqət çəkir. Bunlar hansılardır?

-Birincisi, bu hadisə göstərir ki, rəsmi Bakının xarici siyasəti yalnız Qərb deyil, həmçinin Asiya regionu ilə münasibətlərin uğurlu inkişafına hesablanır. Hazırda, Azərbaycanın, Çin, Rusiya, Pakistan, Mərkəzi Asiya ölkələri ilə əlaqələrinin möhkəmlənməsi həyata keçirilən çoxvektorlu xarici siyasətin praktik və mühüm uğurlarıdır.

-İkincisi: bir çox qərb dairələri, ələlxüsus da Fransa Azərbaycanın qlobal proseslərdən təcrid edilməsində fəal iş aparır və hətta özünün sifarişli qurumlar, məsələn, Avropa Parlamenti vasitəsi ilə ölkəmizə qarşı əsassız qətnamələr qəbul etdirir. ŞƏT-ın son zirvə görüşü bu cəhdlərin tam iflasa uğradığını, Azərbaycanın Avropa VƏ ABŞ ilə yanaşı ÇİN, Rusiya, Pakistan, mərkəzi Asiya ölkələri ilə produktiv əlaqələr qura bildiyini, praktik şəkildə sübuta yetirir.

Prezident İlham Əliyevin ŞƏT çərçivəsində Rusiyalı Həmkarı Putinlə təkbətək görüşünü götürsək görərik ki, tərəflər qarşılıqlı münasibətlərin üç əsas tərəfini önə sürdülər.

1.Ticari, iqtisadi fəaliyyət

2. Nəqliyyat, enerji əməkdaşlığı

3. Humanitar fəaliyyət

Kremlin sahibi deyir ki, hazırda tiacərt dövriyyəsi 4.3-4.5 milyard dollardır. Və bu Rusiyanın Azərbaycan iqtisadiyyatına birbaşa sərmayəsidir. Cari ilin birinci yarısında 13 faizlik artım var və proseslər müsbət istiqamətdə inkişaf edir.

Rusiya Prezidenti Vladimir Putin: *"İnfrastruktur sahəsindəki planlarımızı qeyd etmək istərdim və təbii ki, burada indi birinci yerdə məlum Şimal-Cənub magistralıdır. Ümidvaram ki, bu barədə də bir neçə kəlmə danışacağıq. Digər istiqamətlərdə, o cümlədən enerji və sənaye sahələrində əməkdaşlıq imkanları var. Sizinlə 2022-ci ildə imzaladığımız müqavilə əsasında fəaliyyət göstəririk. Bu, bütün sahələrdə əlaqələrin inkişafı üçün yaxşı zəmindir."* (Prezident.az., 2024).

Eləcə də Azərbaycan Prezidenti xüsusi olaraq vurğuladı ki, həm ötən il, həm də bu il əmtəə dövriyyəsininn artması ölkələrimizin iqtisadiyyatlarının fəal qarşılıqlı fəaliyyət göstərdiyini nümayiş etdirir. Üstəlik milli valyutalarda qarşılıqlı hesablaşmalar artır. Azərbaycanın Rusiya ixracında artıq 70%-dən çox, Rusiyadan Azərbaycana isə 50%-ə yaxın

hesablaşmalar milli valyutalarda aparılır. İki qonşu dövlətin humanitar sahədə qurduğu təmaslar da dünya üçün nümunə sayıla bilər.

Prezident İlham Əliyevin çıxışı: *"Azərbaycanda böyük uğurla keçirilən Rusiya Mədəniyyəti Günləri də bunu bir daha təsdiqləyir. Bizdə bir milyona yaxın şagird rus dilində təhsil alır, 150 min nəfər rus məktəblərində oxuyur, 800 min nəfər isə rus dilini ikinci dil kimi öyrənir. Yəni, bu, onu deməyə əsas verir ki, vətəndaşlarımızın gələcək nəsilləri də aktiv qarşılıqlı fəaliyyətdə olacaqlar və rus dilində Sizinlə mənim danışdığımız kimi danışacaqlar."* (Prezident.az., 2024).

Rəsmi Bakı Azərbaycan ərazisində Şimal- Cənub dəhlizi infrastrukturunu genişləndirmək əzmindədir. Çünki, hazırda layihə fiziki cəhətdən, mövcud olasa da, tərəfdaş və qonşu dövlətlərin ondan maksimum istifadə etməsi üçün müəyyən problemlər var. Bundan başqa, Moskva və Bakı 2022-ci ildə imzaladıqları müttəfiqlik bəyannaməsinin bütün bəndlərini real şəkildə həyata keçirir. Bununla yanaşı tərəflər Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşmasında və sülh gündəliyinin irəli aparılması məsələsində də əməkdaşlığı davam etdirməkdə maraqlı olduqlarını vurğuladılar.

Astanada Azərbaycan və Rusiya prezidentləri arasında keçirilən görüş xüsusi əhəmiyyətli bir məqamdır. Onların görüş əsnasında səsləndirdikləri protokol rəqəmlərinin və apardıqları fikir mübadiləsinin arxasında iki ölkə arasında münasibətlərin daha sıx formatda inkişafı dayanır. Bunlar ümumi maraqlar üzərində qurulmuş möhkəm tərəfdaşlıq körpüləri, beynəlxalq platformalarda bir sıra məsələlər üzrə mövqelərin, habelə siyasi təmasların üst-üstə düşməsi deməkdir. Təbii ki, bu amilərin sırasına ikitərəfli razılaşmalara uyğun olaraq artan ticarət dövriyyəsi də daxildir (Bədirxanlı, 2024). Sammit çərçivəsində Azərbaycan Qazaxıstan münasibətlərini də nəzərdən keçirməkdə fayda var. Qazaxıstan prezidenti Azərbaycan prezidenti ilə görüşdə əməkdaşlıq və qarşılıqlı fəaliyyətin strateji əhəmiyyət daşıdığını bildirib. Rəsmi Astana ölkəmizin ŞƏT üzvlüyünü dəstəklədiyini hər zaman vurğulayır.

"ŞƏT plyus" formatında keçirilən görüşdə çıxış edən Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev BMT-nin alternativinin olmadığını, onun potensialının hələ tükənmədiyini və bu universal təşkilatın rolunu gücləndirməyi beynəlxalq ictimaiyyətin vəzifəsi hesab etdiyini bildirib: *"Bu universal təşkilatın alternativi yoxdur. Bizim ümumi vəzifəmiz XXI əsrin çağırışları ilə səmərəli mübarizə aparmağa qadir olan qlobal təhlükəsizliyin təmin edilməsində əsas beynəlxalq təsisat kimi BMT-nin rolunu gücləndirməkdir"* (Bədirxanlı, 2024). *" ......Bəlkə də bir müddət sonra Azərbaycan ŞƏT-in tamhüquqlu üzvü olacaq. Hər halda, Qazaxıstan buna etiraz etmir, əksinə, Sizin tərəfinizdən müvafiq istək varsa, onu dəstəkləyir. Qazaxıstanda Sizi*

*Azərbaycanın şəksiz Lideri, görkəmli dövlət xadimlərindən biri kimi tanıyırlar. Açıq deyirəm ki, biz Qazaxıstanda Sizin ölkənizdə baş verən bütün dəyişiklikləri böyük maraqla izləyirik, bu dəyişikliklərə ürəkdən sevinirik. Əlbəttə, sözsüz ki, burada Sizin böyük şəxsi rolunuz var və onu yüksək qiymətləndiririk"* (Prezident.az. 2024).

Bu gün Azərbaycanla Qazaxıstan orta dəhliz marşrutunun əsas iştirakçılarıdır və hər iki tərəf bu layihənin uğuru naminə irəliləyişlərin əldə edilməsini vacib sayır. Ölkələrimiz humanitar sahədə əməkdaşlığın dərinləşməsində də maraqlıdır. Bunun bariz nümunəsi Qazaxıstan mədəniyyət günlərinin Azərbaycanda uğurla keçirilməsidir.

Prezident İlham Əliyev: *"Sizin Azərbaycana dövlət səfəriniz, əslində, həm forma, həm məzmun, həm də emosional əhvali-ruhiyyə baxımından tarixi idi. İşğaldan azad edilmiş ərazilərin bərpasına kömək göstərilməsi təşəbbüsünüzə görə bir daha bütün Azərbaycan xalqı adından minnətdarlığımı bildirmək istəyirəm. Qazax xalqının dahi oğlu Kurmanqazının adını daşıyan mərkəz səmərəli fəaliyyət göstərir və Sizinlə birlikdə qeyd etdiyimiz kimi, bu, Qazaxıstan-Azərbaycan dostluğunun və qardaşlığının mərkəzidir. Bu, şəxsən Sizin və qardaş Qazaxıstan xalqının Azərbaycana münasibətinin bariz təzahürüdür."* (Prezident.az., 2024).

Qazaxıstan, Azərbaycanın yaratdığı post-müharibə reallıqlarının əsas dəstəkvericilərindəndir. Rəsmi Astananın sülh prosesində vasitəçilik missiyası, Qarabağdakı Quruculuq işlərində fəal iştirakı, habelə regional nəqliyyat layihələrində birgə iştirakına dəstək Türk dünyasının iki nüfuzlu dövləti arasında əlaqələrin xarakterini tam şəkildə müəyyən edir. 2024-cü il iyul ayının 3-də Astana da imzalanmış Azərbaycan investisiya holdingi və "Samruk-Kazına" Milli Rifah Fondunun səhmdarlar cəmiyyəti arasında səhmdarlar müqaviləsinin Azərbaycan və Qazaxıstan prezidentlərinin iştirakl ilə mübadiləsi, iki tərəfli münasibətlərin heç şübhəsiz ki, özünəməxsus rol oynayacaq.

Sammit çərçivəsində Astanada Prezident İlham Əliyev Çin Xalq Respublikasının sədri Si Cinpinlə də görüşdü. Görüş zamanı qəbul olunan və Azərbaycan Respublikası ilə Çin xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında birgə bəyannamə Bakı - Pekin əlaqələrinin tarixinə qızıl hərflərlə yazılacaq. Liderlər birgə bəyannamənin qəbulundan öncə keçirdikləri görüşdə Çin-Azərbaycan əlaqələrinin səmimiyyətə və qarşılıqlı ehtimada əsaslandığını bildirdilər.

Çin Xalq Respublikasının Sədri Si Cinpin: *"Ölkələrimiz yaxşı dostlardır, bərabərlik və qarşılıqlı faydaya əsaslanan yaxşı tərəfdaşlardır. Çin-Azərbaycan münasibətləri həmişə sağlam və sabit şəkildə inkişaf edib. İki ölkə arasında əməkdaşlıq səmərəli nəticələr verib və daha zəngin strateji məzmuna çatıb. Bu gün biz Birgə Bəyannamə qəbul edəcəyik. Bu sənədlə*

*ikitərəfli əlaqələrimizi strateji tərəfdaşlıq səviyyəsinə yüksəldəcəyimizi bəyan edəcəyik. Bu, həm də yeni bir başlanğıc nöqtəsidir. Biz xalqlarımızın rifahı naminə qarşılıqlı dəstəyi artırmağa davam edəcəyik"* (Prezident.az., 2024).

Hazırda Azərbaycan-Çin əməkdaşlığının bir neçə preatiet istiqaməti var. Məsələn: Ölkələrimiz arasında əmtəə dövriyəsi üç milyard dollara çatır. Çinin altı şəhərində Azərbaycan ticarət evi açılıb. Bununla da, Çin bazarında Azərbaycan məhsulları aktiv şəkildə təşfiq olunur. Çin Azərbaycana ixracın həcmini artırmaq istiqamətində real və praktik addımlar atır. İki dövlət covid-19 epidemiyasına qarşı mübarizədə də səmimi əməkdaşlıq təcrübəsinə malikdir və bu gün ölkələrimiz arasında investisiya əməkdaşlığının prespektivləri də kifatət qədər aydın görünür. Elektromobil və elektrobasların tanınmış istehsalçısı Çinin BYD şirkətinin Azərbaycanın strateji tərəfdaşı seçilməsi sözü gedən əməkdaşlığın konkret ifadəsidir. Siyasi əlaqələrə qaldıqda isə:

Prezident İlham Əliyev: *"Ölkələrimiz yaxın tərəfdaşlardır və bu gün qəbul ediləcək Bəyannamə Çin Xalq Respublikasını və Azərbaycanı rəsmi olaraq strateji tərəfdaşlara çevirir. Hesab edirəm ki, bu, böyük nailiyyətdir, həmçinin yüksək məsuliyyətdir. Biz gələcəkdə də fəal qarşılıqlı fəaliyyət göstərmək, ikitərəfli əlaqələri bütün istiqamətlər üzrə möhkəmləndirmək niyyətindəyik. Şadam ki, Sizinlə görüşlərimiz müntəzəm xarakter daşıyır və ölkələrimiz arasında hərtərəfli münasibətlərin inkişafına mühüm impuls verir. Beynəlxalq strukturlarda qarşılıqlı dəstəyi, ikitərəfli səviyyədə qəbul edilən müxtəlif sənədlərdə ölkələrimizin ərazi bütövlüyünün və suverenliyinin dəstəklənməsinin ifadə olunmasını xüsusi vurğulamaq istərdim"* (Prezident.az., 2024).

Azərbaycan hər zaman vahid Çin siyasətini dəstəkləyir. Tayvanda keçirilmiş seçkilərin Azərbaycanın Xarici İşlər Nazirliyi tərəfindən tənqid edilməsi, Çinin öz növbəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyinin dəstəyi Bakı-Pekin əməkdaşlığının səmimi notlar üzərində qurulduğuna hər hansı şübhə yeri qoymur. İki dövlət ekstremizim və speratizmə qarşı mübarizədə də vahid mövqedən çıxış edir. Rəsmi Bakı multilateralizm yəni çoxtərəfli diplomatiyaya böyük əhəmiyyət verir və digər ölkələrin daxili işlərinə qarışmamaq prinsipini əsas götürür. Elə ona görədir ki, ŞƏT-də Çin Azərbaycanın statusunun artırılmasına dəstəyini ifadə etdi. Bakı-Pekin birgə bəyannaməsinə gəldikdə isə bu sənəd Azərbaycan və sözü gedən Asya nəhəngi arasında münasibətləri rəsmən strateji tərəfdaşlıq səviyyəsinə qaldırır. (Məmmədov, 2024).

Sənəddə əksini tapan mühüm məqamlar:

-Tərəflərin strateji tərəfdaşlığı qarşılıqlı hörmət, bərabərlik, etimad və qarşılıqlı dəstəyə əsaslanır, Azərbaycan və Çin xarici amillərdən asılı olmayaraq bir-birini etibarlı tərəfdaş hesab edir.

-Münasibətlər ərazi bütövlüyü və suverenliyə qarşılıqlı hörmət, daxili işlərə qarışmama prinsipinə əsaslanır.

-Azərbaycan "Vahid Çin" prinsipini qətiyyətlə dəstəkləyir və Tayvanı Çinin ayrılmaz hissəsi kimi qəbul edir.

-Azərbaycanla Çin milli, regional və qlobal təhlükəsizliyin vacib məsələləri ilə bağlı sıx əlaqə və koordinasiya saxlayır, öz ərazisindən hər hansı bir qüvvənin digər tərəfə qarşı istifadəsinə imkan vermir.

-Tərəflər ticarət-iqtisadi əməkdaşlığının inkişafı üçün nəqliyyat və kommunikasiya, yaşıl enerji, emal və istehsal, infrasturuktur, rəqəmsal iqtisadiyyat, kənd təsərrüfatı və digər sahələrdə layihələrə diqqət yetirir.

-Azərbaycanla Çin "Bir kəmər, bir yol" çərçivəsində əməkdaşlığı dərinləşdirməyi vacib hesab edir.

-Çin Trasnxəzər Beynəlxalq Nəqliyyat Dəhlizi - "Orta Dəhliz"-in tikintisində və istismarında fəal iştirak edir.

-Çin COP29-un Azərbaycanda keçirilməsini alqışlayır və Azərbaycanın konfransda sədrliyini dəstəkləyir.

Göründüyü kimi iki strateji tərəfdaş ölkə müasir dünyanın ən aktual çağırışları fonunda tam həmrəylik nümayiş etdirir və istər qlobal, istərsə də proseslərlə bağlı vahid yanaşma ortaya qoyur. Bu isə Azərbaycanın daha öncə Rusiya və Türkiyə kimi nüfuzlu dövlətlərlə imzaladığı strateji müttəfiqlik əlaqələrinin Çin ilə qurulan strateji tərəfdaşlıqla davam etdirildiyinin rəsmi təsdiqidir. Bundan başqa birgə bəyannamə habelə iqtisadi sahədə digər sənədlərin imzalanması Azərbaycanın Beynəlxalq miqyasda nüfuz və çəkisinin daha da yüksəldiyini, Prezident İlham Əliyevin yürütdüyü siyasətə onun şəxsiyyətinə olan hörmət və etibarın artdığını əyani şəkildə ortaya qoyur.

Əməkdaşlığın daha bir real sübutu: Çinin yük avtomobilləri transxəzər beynəlxalq nəqliyyat marşurutundan, yəni orta dəhlizdən istifadə etməyə başlayıblar. Azərbaycana çatan avtomobillər burdan Gürcüstan və Türkiyə vasitəsilə Avropa ölkələrinə yüklənərək yola salınır. Bəli Çin Azərbaycanın ilk idxal mənbəyidir və ölkəmizin 5 əsas ticarət tərəfdaşından biridir. Rəsmi Bakı Çinin irəli sürdüyü "Bir Kəmər, bir yol "təşəbbüsünü dəstəkləyir və bu ölkə ilə

nəqliyyat-loqistika müstəvisində sıx əməkdaşlıq qurur. Tərəflər "Kəmər və yol" layihəsinin mühim hissəsi olan Orta Dəhliz infrastrukturunun inkişafına əhəmiyyətli invenstisiyalar yatırır.

Azərbaycan-Çin strateji tərəfdaşlığının statistik rəqəmlərinə nəzər salaq.

-2023-cü ildə Azərbaycan və Çin arasında ticarət, dövriyyəsi 3,1milyard ABŞ dolları təşkil edib;

-Azərbaycanda 300-dən çox Çin şirkəti qeydiyyata alınıb və onlar sənaye, kənd təsərrüfatı, tikinti, ticarət, nəqliyyat və xidmət sahələrində aktiv fəaliyyət göstərirlər;

-Çindən Azərbaycana 930,8 min dollar, Azərbaycandan Çinə 263,3 min dollar həcmində investisiya qoyulub;

-2023-cü ilin 9 ayı ərzində Orta Dəhliz üzərindən yükdaşımaların həcmi 88% artaraq 2 milyon tona çatıb;

-2022-ci ildə Azərbaycan üzərindən tranzit axını təxminən 75% artıb, Zəngəzur dəhlizinin açılmasından sonra isə bu tranzit həcminin ildə 5-8 milyon ton artması gözlənilir.

Azərbaycan-Çin strateji tərəfdaşlıq bəyannaməsinin regional çəkisini göstərən faktlardan biri də qonşu Ermənistan mətbuatında Astarada imzalanan sənədin mahiyyətinə dair məqalələrinin dərc edilməsi və erməni ekspertləri tərəfindən narahatlığın ifadə olunmasıdır. Siyasi mərkəzlər hesab edirlər ki, Prezident İlham Əliyevin Çin lideri ilə görüşünün nəticəsi olaraq bundan sonra ölkələr arasında əməkdaşlıq bütün sahələr üzrə daha da dərinləşəcək, qarşılıqlı təmaslar və dialoq daha da intensivləşəcək. İkitərəfli münasibətlər yeni məzmun və keyfiyyət qazanacaq (Məmmədov, 2024).

Astanada daha bir mühim hadisə Azərbaycan və Türkiyə Prezidentləri və Pakistanın Baş Naziri arasında keçirilən 3 tərəfli görüş oldu. Liderlər belə bir formatda Zirvə Toplantısının ilk dəfə keçirildiyini vurğuluyaraq bu formatın gələcəkdə mütəmadi xarakter daşıyacağına əminliklərini ifadə etdilər. Qeyd edək ki, tarixi dini köklər və qardaşlıq münasibətləri ilə bir-birinə bağlı olan Azərbaycan, Türkiyə və Pakistan hazırda Beynəlxalq fəal əməkdaşlığa sahibdir. Və tərəflər qarşılıqlı dəstək prosesinin bundan sonra da davam etdirilməsinin vacib oldugunu düşünürlər.

**Nəticə**

Beləliklə Prezidentin Astana səfəri zamanı keçirdiyi görüşlər və çıxışlar Azərbaycanın yeni dövr hədəfləri və xarici siyasətinin prioritetlərinə tam şəkildə aydınlıq gətirir. Prezident onu da qeyd edib ki, *"Biz ümumiyyətlə bu yeni dövrdə xarici siyasət istiqamətində yeni üfüqlər açmalıyıq. Əgər, əvvəlki dövrdə bizim xarici siyasətimizin əsas istiqaməti Azərbaycan - Ermənistan münaqişəsinin həlli idisə, bu gün artıq bu məsələ gündəlikdə demək olar ki durmur.*

*Ona görə xarici siyasətmizin yeni istiqamətləri üstünlük təşkil etməlidir. Biz dünyanı narahat edən problemlərin həllində daha fəal olacağıq. O cümlədən, iqlim dəyişikliyi ilə əlaqədar...*” (Prezident.az, 2024)

Bəli, fevralın 14-də andiçmə mərasimində dövlət başçısının dediyi bu sözlər həftəiçi baş tutan iki mühüm tədbir-türk dövlətləri təşkilatının Şuşa Sammiti, eləcə də ŞƏT Astana zirvəsi fonunda nə qədər aktual olduğunu göstərir. Bütün bunlar həm də, Azərbaycanın ikitərəfli və çoxtərəfli siyasətinin uğurlarıdır. COP29-a sədirliyimizə verilən dəstək isə Azərbaycanın qlobal aktora çevirildiyini və dünyanın aparıcı ölkələrinin Bakı ilə əməkdaşlığa xüsusi önəm verdiyini göstərir. Daha bir mühüm detal- TDT və ŞƏT çərçivəsində verilən mesajlar bir daha təsdiqləyir ki, Cənubi Qafqazda davamlı sülh və təhlükəsizlik məhz Azərbaycanın yaratdığı post müharibə reallıqlarına əsaslanacaq. Ümumiyyətlə, bu gün dünyada intensiv inkişaf edən az təşkilat var. Nəzərə alsaq ki, dünyada son vaxtlar regional təşkilatlara meyil güclənib, onların arasında irəlidə gedəni məhz Şanxay Əməkdaşlıq Təşkilatıdır. İlk yarandığı dövrlərdə beynəlxalq terrorizmə, narkotiklərlə mübarizə üçün nəzərdə tutulan təşkilat kimi fəaliyyətə başlasa da, getdikcə iqtisadi əməkdaşlıq, qlobal layihələrin gündəmə gəldiyi və həyata keçdiyi bir platformaya çevrilib. Bu baxımdan Azərbaycanın ŞƏT-də iştirakı hər tərəfdən faydalı və böyük əhəmiyyətə malikdir.

**Ədəbiyyat**

Azerbaijan-news. (2024, Temmuz 5). *Qardaşxanova Əsmər Astana Zirvə görüşü yeni uğurların təməlini qoydu*. https://azerbaijan-news.az/az/posts/detail/astana-zirve-gorusu-yeni-

Azərtac. (2024, Temmuz, 4). *Astanada Şanxay Əməkdaşlıq Təşkilatının sammiti başlayıb*. https://azertag.az/xeber/astanada_sanxay_emekdasliq_teskilatinin_sammiti_baslayib-3081054

BBC News. (2022, Eylül 22). *4 sualda Şanxay Əməkdaşlıq Təşkilatı* https://www.bbc.com/azeri/articles/c

Bizim.media. (2024, Temmuz 3). *Astana zirvəsinin Strateji Əhəmiyyəti-Azərbaycanla əməkdaşlıq ŞƏT üçün niyə vacibrir?,* https://bizim.media/az/siyaset/200248/astana-zirvesinin-stratej-hmyyt-azerbaycanla-e

Bədirxanlı, İ. (2024, Temmuz, 5). *Şanxay Əməkdaşlıq Təşkilatı Avropaya doğru genişlənir*. Xalqqəzeti.az.https://www.xalqqazeti.az/

Məmmədov, (2024, Temmuz 7). *Rövşən Həftə verlişi*. https://www.youtube.com/live/a

President.az. (2024 Temmuz 03). *Astanada İlham Əliyevin Çin Xalq Respublikasının Sədri Si Cinpin ilə görüşü keçirilib*. https://president.az/az/articles/view/66386

President.az. (2024 Temmuz 03). *Astanada İlham Əliyevin Rusiya Prezidenti Vladimir Putin ilə görüşü olub*. https://president.az/az/articles/view/66383

President.az. (2024 Temmuz 03). *Astanada Azərbaycan və Qazaxıstan prezidentlərinin görüşü keçirilib.* https://president.az/az/articles/view/66384

President.az. (2024 Temmuz 03). *İlham Əliyev Astanada "ŞƏT plyus" formatında görüşdə çıxış edib*. https://president.az/az/articles/view/66396